AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

İŞÇİ MƏQALƏLƏRİ SİLSİLƏSİ
№ 21/2013





# YÜKSƏK GƏLİRLİ ÖLKƏYƏ ÇEVRİLMƏK ÜÇÜN AZƏRBAYCANIN ÜSTÜNLÜKLƏRİ





*Elman Eminov*

*Namiq Nağdəliyev*











**Qeyd: Bu tədqiqat işində ifadə olunan fikirlər müəlliflərə məxsusdur və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi mövqeyi ilə üst-üstə düşməyə bilər.**

# Yüksək gəlirli ölkəyə çevrilmək üçün Azərbaycanın üstünlükləri[1]


## Xülasə

Məqalənin məqsədi sistemləşdirilmiş göstəricilər əsasında Azərbaycanın yuxarı orta gəlirli ölkələr arasındakı mövqeyinin müqayisəli təhlilini aparmaq və bununla da yüksək gəlirli ölkəyə çevrilmə imkanlarını müəyyən etməkdir.

Əsas gəlinən nəticə odur ki, Azərbaycanın qrup daxilində ən gənc ölkələrdən biri olmasına baxmayaraq, göstəricilərin bir çoxu üzrə digər ölkələrlə müqayisədə əhəmiyyətli üstünlüklərə malikdir. Növbəti gəlir qrupuna keçid üçün ölkənin əlverişli imkanları mövcuddur.

## Abstract

The main purpose of the paper is to conduct analysis of Azerbaijan’s comparative ranking among upper middle-income countries on the basis of systemitized indicators. Another purpose is to determine Azerbaijan’s advantages in transforming into high income country.

The essential finding is that Azerbaijan has significant advantages on many indicators in spite of the fact that the country is one of the youngest within upper middle income group. To move into the next income group the country has favorable opportunities.



**Açar sözlər:** Gəlir qrupları, iqtisadi artımın sönməsi, orta gəlir tələsi, inkişaf fazaları

**Key words:** Income groups, economic growth slowdown, middle income trap, development stages

**Jel classification:** O15, P46



[1] Müəlliflərin e-mail ünvanı:

elman_eminov@cbar.az

namig_nagdaliyev@cbar.az

# GİRİŞ

Ölkələrin gəlir səviyyəsi arasındakı fərqlər uzun illərdir ki, həm akademik dairələr, həm də siyasət qurucuları arasında maraq doğurmaqdadır. Bəzən ölkələrin bir gəlir qrupundan digərinə keçidi qısa müddət ərzində baş verir. Lakin, ölkələr də vardır ki, uzun illər eyni gəlir qrupunda (“tələsində”) qalır. Tədqiqatlar göstərir ki, ölkəmiz üçün artıq aşılmalı olan bir hədd qalıb ki, o da yüksək gəlirli ölkəyə çevrilməkdir. Bu baxımdan ölkənin malik olduğu üstünlüklərin qiymətləndirilməsi “Azərbaycan-2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasında qoyulan hədəflərin realizasiyası kontekstində aktualdır.

Məqalənin birinci hissəsində gəlir qrupları və orta gəlir tələsi haqqında məlumat və təhlil nəticələri verilir. İkinci hissədə Azərbaycanın da yer aldığı yuxarı orta gəlirli ölkələr haqqında iqtisadi, coğrafi, tarixi məlumat öz əksini tapır, eyni zamanda təqribən ötən yarım əsrdə Azərbaycanın gəlir qruplarında hərəkəti göstərilir. Sonuncu bölmədə isə Azərabycanın 54 yuxarı orta gəlirli ölkə arasında üstünlükləri və tədqiqatın əsas nəticələri təqdim olunur.

## 1. Gəlir qrupları və “orta gəlir tələsi”

### 1.1. Gəlir qrupları və inkişaf fazaları.

Yüksək gəlirli ölkəyə çevrilməklə əhalinin yüksək maddi rifahını təmin etmək, dayanıqlı və yüksək keyfiyyətli iqtisadi inkişaf xəttini təqib etmək yəqin ki, bütün ölkələr qarşısında dayanan ən mühüm vəzifələrdən biridir. Lakin, qeyd edilən hədəflərə nail olmaq heç də asan deyildir. Son qlobal böhrandan sonra iqtisadi artım paradiqmaları və makroiqtisadi siyasət çərçivəsi haqqında yenidən düşünmək, üstünlükləri adekvat qiymətləndirmək mühüm vəzifəyə çevrilmişdir.

Bəzi xalqların rifahının yüksək, digərlərinin isə aşağı olması barədə hipotezaları əsaslandırarkən ingilis iqtisadçısı Lionell Robbins-in (1935) yanaşması maraq doğurur: “İqtisadiyyat müəyyən başlanğıc və son fazalar arasında çoxlu sayda alternativlər üzərində insanların davranışlarını öyrənən elmdir”. İnkişaf fazaları haqqında hazırda ən müasir yanaşmalardan biri Rostow (1960) tərəfindən irəli sürülmüş və Harvard universitetinin professoru Micheal M Porter-in (2002) modifikasiya etdiyi yanaşmadır.[20] Qeyd edək ki, bu yanaşma 2002-ci ildən etibarən Dünya İqtisadi Forumu tərəfindən ölkələrin rəqabət qabiliyyətinin müəyyən edilməsində istifadə olunur.

---

[20] *The Global Entrepreneurship and Development Index: A Brief Explanation,*

Dünya İqtisadi Forumu ölkələrin rəqabət qabiliyyətini institutların keyfiyyəti, iqtisadi siyasət və ölkə iqtisadiyyatının məhsuldarlığını müəyyənləşdirən digər amillərin toplusu kimi təyin edir. Məntiqi nəticə odur ki, qeyd edilən 3 istiqamət üzrə keyfiyyət meyarlarını yüksəltmədən rəqabət qabiliyyətini artırmaq, bununla da daha yüksək gəlir qrupuna keçid mümkün deyil.

Hazırda ölkələrin gəlir qrupları üzrə sərhədlərini müəyyən edərkən Dünya Bankı (DB) və Asiya İnkişaf Bankının (AİB) təsnifatına istinad olunur. Asiya İnkişaf Bankı 1990-cı ilin qiymətləri ilə adambaşına gəliri 2000$-dan aşağı olan ölkələri aşağı gəlirli ölkə, 2000-7250 $ olan ölkələri aşağı orta gəlirli ölkə, 7250-11750 $ olan ölkələri yuxarı orta gəlirli ölkə, 11750 $-dan yuxarı olanları isə yuxarı gəlirli ölkə hesab edir.

Dünya Bankının təsnifatına görə isə cari qiymətlərlə bu sərhədlər müvafiq olaraq 1025$-dək, 1026-4035$, 4036-12475 $ və 12476 $-dan yuxarı təşkil edir. Qeyd etmək lazımdır ki, gəlir qruplarının hər iki bölgüsü DB-nın borc əməliyyatı kateqoriyaları (operational lending categories) əsasında müəyyən edilmişdir[21]. Eyni zamanda Bank hər hansı bir ölkə üzrə adambaşına gəliri hesablayarkən məzənnə və tsiklik dəyişmələri hamarlamaq üçün üç ilin ortasını götürür (Atlas metodu).

## 1.2. Orta gəlir tələsi

Əslində ölkələrin gəlir qrupları üzrə hərəkəti nəzəri və empirik baxımdan iqtisadi artımın sönməsi və ya artım templərinin qorunması məsələsidir. İqtisadi nəzəriyyə və dünya ölkələrinin iqtisadi tarixi göstərir ki, ölkələr gəlir pillələrində irəlilədikcə iqtisadi artım templəri aşağı düşür.

Eichengreen (2011) sürətli böyüyən iqtisadiyyatların artım tempinin nə vaxt aşağı düşməyə başladığını araşdırmışdır. Müəllifin araşdırması göstərir ki, adambaşına gəliri 10000$-dan yüksək olan ölkədə adambaşına orta ÜDM-in 7 illik artımı əvvəlki dövrlə müqayisədə 2% bəndindən aşağı olarsa, bu, iqtisadi artımın aşağı düşməyə başlaması deməkdir. Empirik hesablamalar isə göstərir ki, 2005-ci il qiymətləri ilə adambaşına gəlir səviyyəsi 16740$-a çatdıqda, adambaşına artım 3.5% bəndi və daha çox aşağı düşməyə başlayır.

Emal sənayesində məşğulluq ümumi məşğulluğun 23%-nə və adambaşına gəlir bençmark ölkənin (texnoloji sərhəddəki ölkə - technological frontier) 58%-ə çatdıqda artım templəri sönməyə başlayır.

Cheng və Zhangın tədqiqatları da (2013) Çin və Hindistan üçün oxşar nəticələrə

[21] *http://data.worldbank.org/about/country-classifications/a-short-history*

gəlməyə əsas verir. Belə ki, proqnozlara görə Çin və Hindistanda yaxın illərdə orta iqtisadi artım tempi 2% bəndi aşağı düşərək 8% və 6% təşkil edəcəkdir. Göründüyü kimi, iqtisadi artımın gəlirlərin artımına paralel olaraq aşağı enməsi qaçılmazdır. Bu mənada əsas məsələ artımın aşağı düşmə tempinin qarşısının alınması yox, onun tsiklik trayektoriyadan çox kənarlaşmasının qarşısının alınmasıdır. Əks halda ölkələrin orta gəlir tələsinə (OGT) düşməsi baş verir.

"Orta gəlir tələsi" ifadəsi ilk dəfə Gill və Kharas tərəfindən 2007-ci ildə istifadə edilmişdir[22]. Müəlliflərə görə aşağı əmək haqqına malik kasıb ölkələr ilə sürətli texnoloji dəyişikliyə məruz qalan varlı ölkələr arasında mövqe tutan ölkələr OGT-ə düşmüş ölkələrdir. Asiya İnkişaf Bankına görə isə OGT-ə düşmüş ölkə o ölkədir ki, emal sənayesi ixracında İnkişaf Etmiş Ölkələrlə istehsal faktoru üstünlüyü zəminində rəqabət apara bilmir. Nəticədə belə ölkələr resurs əsaslı artım modelindən məhsuldarlıq əsaslı artım modelinə vaxtında keçid edə bilmirlər.

Ohno-ya görə (2009) birbaşa xarici investisiya qəbul edən az sayda ölkələr 1-ci pillədə dayanırlar. Digər qrup ölkələr insan kapitalını inkişaf etdirə bilmədiklərindən ikinci pillədə qalırlar. İqtisadi tarix göstərir ki, ölkələrin bir çoxu görünməz "şüşə tavanları"nı qırıb ikinci pillədən üçüncü pilləyə keçid edə bilməmişlər.Bu fenomen məhz OGT adlandırılır.

Agenor-a (2012) görə ölkələr inkişafın ilkin fazasında aşağı gəlirli ölkələr texnologiya idxal etməklə əmək tutumlu, aşağı dəyərə malik məhsullar istehsal edirlər. Bu yolla ilkin mərhələdə işçi qüvvəsinin aşağı məhsuldarlığına malik kənd təsərrüfatından nisbətən yüksək məhsuldarlığa malik sənayeyə keçidi baş verir. Ölkə orta gəlir səviyyəsinə keçdikdən sonra, iqtisadiyyatın qeyri-məhsuldar və qeyri-ticari sektorlarında işçi qüvvəsi bahalaşır, nəticədə iqtisadiyyat malik olduğu yeganə rəqabət üstünlüyünü itirir. Bu mərhələdən sonra adambaşına düşən gəliri artırmaq mümkün olmur, ölkə OGT-ə düşmüş olur. Bu məsələ haqqında danışarkən, iqtisadiyyatın strukturu, işçi qüvvəsinin bahalığı kimi amillərlə yanaşı, institusional mühitin diqqətə alınması xüsusi əhəmiyyət kəsb edir. OGT-ə düşməmək üçün institutların "inklüzivliyi"nin[23] təmin olunmasına məhz inkişafın ilk mərhələsində başlanılmalıdır.

---

[22] *Gill, I., and H. Kharas. 2007. An East Asian Renaissance. The World Bank, Washington, DC. Gerschenkron, A. 1962. Economic Backwardness in Historical Perspective: A Book of Essays.*

[23] *Mülkiyyət hüquqlarının qorunması, azad bazar və dövlət tənzimlənməsi, əhalinin böyük hissəsinin təhsil və səhiyyəyə çıxışı*

**Qrafik 1.** Artım fazaları və tələ




*Mənbə: Dünya İqtisadi Forumunun məlumatları əsasında müəlliflər tərəfindən tərtib olunmuşdur*

AİB 124 ölkə arasında 1950-2010-ci illəri əhatə edən tədqiqat aparmışdır. Tədqiqat əsasında ölkələr üzrə aşağı gəlir qrupundan aşağı orta gəlir qrupuna, aşağı orta gəlir qrupundan yuxarı orta gəlir qrupuna keçidin median göstəricisinin 28 və 14 il olduğu müəyyən edilmişdir. Bunun əsasında müəyyən edilmişdir ki, əgər ölkə aşağı gəlir qrupu və aşağı orta gəlir qrupu arasında 28 ildən çox qalarsa *aşağı orta gəlir tələsinə* düşür. Əgər ölkə aşağı orta gəlir qrupu ilə yuxarı orta gəlir qrupu arasında 14 ildən çox qalarsa, *yuxarı orta gəlir tələsinə* düşmüş hesab edilir. Başqa ifadə ilə müvafiq gəlir qruplarında tələyə düşməmək üçün adambaşına real iqisadi artım tempi orta illik hesabla 4.7% və 3.5% təşkil etməlidir.

Hazırda 54 yuxarı orta gəlirli ölkənin (YOGÖ) hər 2-dən 1-i *yuxarı orta gəlir tələsindədir*. Tələdə olan ölkələrin ən çoxu və ya 12-i Amerika qitəsindədir. Cəmi 5 ölkə Avropa və Okeaniyanın payına düşür, yerdə qalan 10 ölkə isə Afrika və Asiyadadır (bax. Əlavə 1).

## 2. Orta gəlir qrupu

Dünya Bankının ölkələrin gəlir qrupları üzrə təsnifatına əsasən hazırda dünyada 54 aşağı orta gəlirli və 54 yuxarı orta gəlirli ölkə mövcuddur. YOGÖ-in 19-u və ya hər 3 ölkədən biri Amerika qitəsində, 12-i (22%) Afrikada, 10-u Asiyada, 10-u Avropada, 3-ü isə Okeaniyada yerləşir. Sözügedən gəlir qrupunun ən "qoca" üzvü 1955-ci ildə qrupa düşən Venesuela, ən "gənci" isə 2010-cu ildə qrupa daxil olan Ekvador, Tunis, Türkmənistan, Maldiv, Çin, Tayland və İordaniyadır. Azərbaycan bu gəlir qrupuna 2009-cu ildə daxil olmuşdur. Azərbaycan 5-ci ildir ki, YOGÖ qrupundadır. Bu müddət Amerika qitəsi ölkələrində ortalama 22 il, Afrikada 18, Asiyada 12, Avropada 12, Okeaniyada isə ortalama 16 ilə bərabərdir (bax: Əlavə 1).

Ölkənin iqtisadi inkişaf tarixinə nəzər salsaq görərik ki, Azərbaycan ilk dəfədir ki, YOGÖ liqasındadır. Belə ki, 1975-ci ildə Azərbaycan aşağı gəlirli ölkə statusundan qurtulmuş və aşağı orta gəlirli ölkə statusunu qazanmışdır. Ölkə müstəqilliyin ilk illərində baş vermiş iqtisadi tənəzzüllə əlaqədar aşağı gəlirli ölkəyə çevrilmiş, sonradan sürətlə orta gəlirli ölkələr cərgəsinə daxil olmuşdur.

Dünya Bankının hesablamalarına görə hazırda yüksək gəlirli ölkə sərhəddi (threshold) 1989-2009-cu illər ərzində orta illik hesabla 3.46% artmışdır. Belə bir orta illik artım tempinin yaxın dövrdə də davam edəcəyini fərz etsək, o zaman Azərbaycan adambaşına gəlirin 10-12% artımı halında 2020-ci ilədək yüksək gəlirli ölkəyə çevrilə bilər.

**Qrafik 2.** Azərbaycanda AQP məzənnə üzrə ÜDM, ABŞ dolları




*Mənbə: DSK (Xalqa həsr olunan illər nəşri) və Conference Board məlumatları əsasında hesablama*

## 3. Yuxarı orta gəlirli ölkələr arasında Azərbaycanın üstünlükləri

İqtisadi tarix göstərir ki, iqtisadi artımın davamlılığının təmin edilməsi mürəkkəb bir vəzifədir. Ölkələrin gəlir qruplarında irəliləməsi də məhz iqtisadi artımın davamlılığına istinad edir. Ölkələr gəlir qruplarına xas "tələ"lərə o halda düşürlər ki, iqtisadi artım səviyyələri və müddəti bir gəlir qrupundan digərinə keçidi təmin etmir. Bu mənada tələdən qaçmağın yolu iqtisadi artımın aşağı düşməsinin qarşısının alınması və onun davamlılığına, fasiləsizliyinə nail olmaqdır. Bəs onda iqtisadi artım tempinin azalmasının (growth slowdown) determinantları nədir? Ölkə hansı şərtləri yerinə yetirməlidir ki, iqtisadi artım və onun fasiləsizliyi təmin edilsin?

Aiyar, Duval, Puy, Wu və Zhang[24] tərəfindən iqtisadi artımın azalmasının determinantları sistemləşdirilərək müəyyənləşdirilmişdir. Müəlliflər tərəfindən bu sahədə mövcud ədəbiyyat təhlil edilmiş, xüsusilə probit[25] spesifikasiyasından istifadə edilməklə 7 kateqoriya üzrə 42 göstəricilər sistemi formalaşdırılmışdır. Sonra müəlliflər tərəfindən 54 YOGÖ üzrə məlumatların əlyetərliyi nəzərə alınaraq, təklif olunan amillər modifikasiya olunmuş, 6 kateqoriya və 21 alt göstərici üzrə yenidən qruplaşdırılmışdır (bax: Əlavə 2). Ümumilikdə, üstünlüklərin qiymətləndirilməsi zamanı bu göstəricilər sistemindən istifadə olunmuşdur. Bu zaman hər bir kateqoriyanın müvafiq göstəricisi üzrə Azərbaycanın 54 YOGÖ arasında mövqeyinin müqayisəsi aparılır və sonda bu müqayisə əsasında ölkə üçün üstünlük matrisi qurulur.

### 3.1. Demoqrafiya

BMT-nin məlumatlarına əsasən 2005-2010-cu illərdə 54 YOGÖ-nin 30-da qadınların nəsilvermə əmsalı 2-dən yüksək, digərlərində isə 2-dən aşağıdır. Azərbaycanda bu nisbət pozitiv zonada olmaqla, 2-yə bərabərdir. Bu göstərici ən yüksək Anqola (6.5) və Qabonda (4.3), ən aşağı isə Bosniya (1.3) və Rumıniyada (1.2) qeydə alınmışdır.

Nəsilvermə üzrə dinamika özünü paralel olaraq əhali artımı proqnozlarında da göstərir. Proqnozlara əsasən gələcək 10 il ərzində Azərbaycan əhalisi orta illik 1% artım nümayiş etdirəcəkdir. Bir sıra yuxarı orta gəlirli ölkələrdə orta illik əhali artımı 2%-dən yüksəkdir ki, bu da adambaşına iqtisadi artımın sürətini məhdudlaşdırır. 9 ölkədə isə (Kuba, Serbiya, Rusiya, Bosniya, Rumıniya, Belarusiya, Litva, Latviya, Bolqarıstan) əhali artımı mənfidir ki, bu da əmək ehtiyatları qıtlığı yaratmaqla ümumi iqtisadi artıma mənfi təsir edir.

24 *BVF WP 13/71, Growth Slowdowns and the Middle-Income Trap*
25 *İndikatorun standart normal paylanmasını göstərir*

Eyni zamanda “demoqrafik dividend” adlandırılan asılılıq nisbəti (dependency ratio – 15-64 yaşlı əhalinin 65+ yaşlı əhaliyə nisbəti) və “çatışmayan qadınlar” kimi də tələffüz edilən cins nisbəti (kişi qadın nisbəti) üzrə də Azərbaycan qrup daxilində əlverişli hesab oluna biləcək mövqedədir. Belə ki, asılılıq nisbəti üzrə Azərbaycan qrup daxilində ən yaxşı mövqeyə sahib 11-ci ölkədir. Azərbaycanın göstəricisi ən pis mövqeyə malik Latviyadan 3.3 dəfə yaxşıdır. Azərbaycan kişi qadın nisbətinin isə 100-ə ən yaxın olduğu ilk 10 ölkə arasındadır. Əgər bu nisbət Azərbaycanda 98.4%-ə bərabərdirsə, kişilərin ən çox olduğu Çində 107.4%, qadınların ən çox olduğu Latviyada isə 84.1% təşkil edir[26].

## 3.2. İqtisadi mühit və institutlar

Azərbaycan Dünya Bankının Doing Business hesabatına əsasən YOGÖ arasında islahat bençmarkı ilə (distance to frontier) məsafəsi[27] ən minimal olan ölkələr arasındadır. Belə ki, ümumi indeks üzrə ölkə YOGÖ arasında 30 ölkədən bençmark səviyyəyə daha yaxındır.

Qlobal Rəqabətlik İndeksinin institutlar alt göstəricisinə görə isə Azərbaycan qrup daxilində 14-cü yerdədir[28]. Azərbaycanın mövqeyi ilə institutlar göstəricisi üzrə qrup daxilində ən yaxşı mövqeyə malik Çili və Malayziyanın mövqeyi arasında məsafə cəmi 35 pillə təşkil edir. Ən pis mövqeyə malik Venesuela və Əlcəzairdən isə Azərbaycan 81 pillə irəlidədir. Ölkənin mövqeyi hətta Türkiyə, Braziliya, Qazaxıstan, Rumıniya və Rusiyadan yaxşıdır.

## 3.3. İnfrastruktur

Ölkəmizdə infrastrukturun müasirləşdirilməsi və yenidən qurulması məqsədilə qoyulan iri həcmli investisiyalar sayəsində qlobal Rəqabətlik İndeksinin infrastruktur alt göstəricisinə görə Azərbaycan qrup daxilində bençmark ölkələrinə sürətlə yaxınlaşmışdır[29]. Hazırda, ölkəmiz orta sıralarda, yəni 20-ci yerdə qərarlaşmışdır. Azərbaycanın bu göstərici üzrə aldığı qiymət (3.94, maksimum 7) bençmark ölkə olan Malayziyanın mövqeyinə (5.09) 29% yaxın, autsayder olan Livanın göstəricisindən (2.46) isə 60% yüksəkdir.

---

[26] *http://esa.un.org/unpd/wpp/Excel-Data/population.htm*

[27] *Hər bir göstərici üzrə ən yaxşı ölkə təcrübəsi bençmark kimi götürülür və bunun əsasında ölkələrin bençmarka olan yaxınlığı hesablanır. Rəqəmin 100-ə yaxınlaşması bençmarkla aradakı fərqin kiçildiyini göstərir.*

[28] *54 YOGÖ-dən ölkədən 38-i siyahıda var. Amma əsas aparıcı ölkələr siyahıda yer alır*

[29] *54 YOGÖ-dən ölkədən 39-u siyahıda var. Amma əsas aparıcı ölkələr siyahıda yer alır*

## 3.4. Makroiqtisadi və maliyyə sabitliyi

Qlobal Rəqabətlik İndeksinin makroiqtisadi mühit alt göstəricisi və eyni zamanda xarici borcun Milli Gəlirə aşağı nisbəti göstəriciləri üzrə Azərbaycan YOGÖ arasında 5-ci yerdə qərarlaşmışdır. Ölkə üzrə xarici borcun Milli Gəlirə nisbəti YOGÖ-in eyni adlı göstəricisindən 2 dəfəyə yaxın əlverişlidir.

Azərbaycan böhran öncəsi (fakt) və böhran sonrası (proqnoz) dövr üzrə orta inflyasiyanın aşağı səviyyəsinə görə YOGÖ arasında orta mövqelərdədir. Qeyd olunan dövrdə 5.2%-lik inflyasiyanın (qrup ölkələri üzrə orta 5.5%) iqtisadi artım baxımından məqbul hesab edilməsi ölkəyə ciddi üstünlük qazandırır. Belə ki, bir sıra tədqiqatlar Azərbaycanda iqtisadi artım üçün təhlükəsiz inflyasiya səviyyəsinin məhz 5-7% olduğunu göstərir. Qrup daxilində cəmi 5 ölkədə (Anqola, Argentina, İran, Venesuela, Belarusiya) inflyasiya ikirəqəmlidir, 4 ölkədə isə 7%-dən yuxarıdır.

1995-ci ildən sonrakı mərhələdə ölkənin bank sektorunda maliyyə sabitiliyi yüksək səviyyədə qorunmuşdur. Lakin, YOGÖ-in bir neçəsində, hətta bəzi qabaqcıl ölkələrində belə bir sıra bank böhranları baş vermiş, bəzilərində həm böhranın müddəti, həm də iqtisadiyyata vurduğu zərər əhəmiyyətli olmuşdur. Bank kapitalının bank aktivlərinə görə də Azərbaycan qrup daxilində ilk 5-likdədir. Azərbaycanda bank kapitalı bank aktivləri nisbəti dünya və YOGÖ üzrə orta göstəricidən 1.5 dəfə yüksəkdir.

Azərbaycanda yüksək inklüziv iqtisadi artımın qeydə alınması gələcək artım prosesinə daha çox məhsuldar qüvvələrin cəlbi üçün əlverişli zəmin formalaşdırır. Məlum olduğu kimi, inklüziv artım bir iqtisadi inkişaf strategiyası olaraq iqtisadi artımdan hər kəsin bərabər faydalanmasını nəzərdə tutur. İnklüziv artım yoxsul əhali təbəqəsinin də iqtisadi artımdan yararlanmasını, həm də əhalinin yoxsulluqdan çıxaraq iqtisadi artıma töhvə verə biləcək səviyyəyə çatmasını hədəfləyir.

BVF-un mütəxəsisləri ölkələrin inklüziv artımının ölçülməsi ilə əlaqədar yeni bir metodologiya təklif edirlər. Həmin metodologiyaya uyğun olaraq, ölkələrin inklüziv artımı *konsentrasiya əyrisinə* əsasən hesablanmışdır[30]. Ümumilikdə, metodologiya bir tərəfdən adambaşına ÜDM-in artımını, digər tərəfdən isə gəlir bərabərsizliyinin dəyişməsini nəzərə alır. Əsas ideya ondan ibarətdir ki, ölkə gəlir bərabərsizliyini azaltmaqla daha çox insanı artım prosesinə cəlb edir və nəticədə iqtisadi artımın inklüzivlik səviyyəsi yüksəlir.

Hesablamalara görə Azərbaycan 1995-2008-ci illərdəki inklüziv artıma görə qrup daxilində Maldiv adaları ilə yanaşı lider mövqedədir. İnklüziv artımın birinci elementi

---

[30] *İnklüzivliyin digər ölçülməsi metodu AİB ekspertləri tərəfindən ideya kimi təklif olunan, BVF ekspertləri tərəfindən isə hesablanan* ***imkan funksiyasıdır*** *(opportunity function).*

olan adambaşına artıma görə isə Azərbaycan mütləq liderdir, ikinci element üzrə isə ölkə YOGÖ arasında 12-cidir.

YOGÖ arasında digər 18 ölkədə ikinci element ya sıfıra bərabərdir, ya da sıfırdan kiçikdir ki, bu da gəlir bərabərsizliyinin pisləşməsi hesabına iqtisadi artıma nail olunduğunu göstərir.[31]

## 3.5. Ticarət və kapital açıqlığı

Azərbaycan de-jure maliyyə açıqlığını ölçən Chinn-İto indeksinə görə YOGÖ arasında ilk 30-luqdadır. Ölkənin indeks üzrə aldığı qiymət neytrala yaxındır ki, bu da qrup daxilində bençmark olan Kosta Rikadan (+2.44) və autsayder olan Anqoladan (-1.86) təqribən bərabər məsafədədir[32]. BVF-nun hesablamaları göstərir ki, dünyada ən yüksək qlobal inteqrasiya səviyyəsinə malik regionlar Avropa və Asiyadır. Bu region ölkələrində həm idxal-ixrac əməliyyatlarının ÜDM-də payı, həm də qlobal ticarət dövriyyəsində region ölkələrinin payı yüksəkdir. **Üstünlük matrisi (bax: Əlavə 2)**

Müəyyən olunmuş göstəricilər əsasında aparılmış müqayisələr üstünlük matrisinin tərtib olunmasına imkan verir. Üstünlüyün dəqiq identifikasiyası bir neçə parametr əsasında aparılır və göstərici üzrə aşağıdakı şərtlərin təmin olunması nəzərdən keçirilir:

i) Hər bir göstərici üzrə ölkə YOGÖ arasında hansı səbətə düşür – ilk səbət, axırıncı, yoxsa orta?

ii) Ölkənin hər bir göstərici üzrə aldığı qiymət qrup daxilində bençmarka nə qədər yaxındır, autsayderdən nə qədər uzaqdır?

iii) Ölkənin hər bir göstərici üzrə aldığı qiymət sıranın median və ya ortasına nə qədər yaxındır?

iv) Ölkənin mövqeyi əsas rəqib ölkələr (qonşu ölkələr, MDB və Ş.Avropa ölkələri) ilə müqayisədə nə qədər yaxşı və ya pisdir?

Bunun əsasında müəyyən edilmişdir ki, 21 göstəricidən 19-da və ya 90%-i üzrə Azərbaycan 54 YOGÖ arasında üstünlüyə malikdir. Üstünlüyə malik 19 göstəricinin 7-si və ya 37%-i üzrə üstünlük yüksək, 8-i (42%-i) üzrə orta, 4-ü (21%-i) üzrə aşağı kimi qiymətləndirilir. Başqa ifadə ilə, hər 3 göstəricinin 2-də üstünlük ya yüksəkdir, ya da orta səviyyədədir.

---

[31] *Yalnız 54 YOGÖ-dən 38-i haqda məlumat var*

[32] *Mənbə: [http://web.pdx.edu/~ito/Chinn-Ito_website.htm](http://web.pdx.edu/~ito/Chinn-Ito_website.htm) , indeksin müsbət qiyməti açıqlığın artmasını göstərir*

# NƏTİCƏ

Müəyyən edilmiş və sistemləşdirilmiş göstəricilər əsasında Azərbaycanın yuxarı orta gəlirli ölkələr arasındakı mövqeyinin müqayisəli təhlili aparılmış, mümkün üstünlüklər tapılmış və aşağıdakı nəticələr əldə edilmişdir:

1. Azərbaycan 54 yuxarı orta gəlirli ölkə arasında qrupda olan ən gənc ölkələrdəndir. Bu isə başqaları ilə müqayisədə ölkənin növbəti gəlir qrupuna keçid imkanlarını əhəmiyyətli artırır;
2. Üstünlüyün müəyyən edilməsi üçün istifadə olunan 21 göstəricidən 19-da və ya 90%-də Azərbaycan qrup daxilində üstünlüyə malikdir. Üstünlüyə malik 19 göstəricinin 7-si və ya 37%-i üzrə üstünlük yüksək, 8-i (42%-i) üzrə orta kimi qiymətləndirilir;
3. Mütləq üstünlüyün olmadığı göstəricilərin heç biri üzrə ölkə autsayder mövqeyə malik deyil.

Əlavə 1: 54 Yuxarı Orta Gəlirli Ölkə

| Region | Qrupa daxil olduğu il | Region | Qrupa daxil olduğu il | Region | Qrupa daxil olduğu il | Region | Qrupa daxil olduğu il | Region | Qrupa daxil olduğu il |
|---|---|---|---|---|---|---|---|---|---|
| Amerika | | Afrika | | Asiya | | Avropa | | Okeaniya | |
| Venesuela* | 1955 | Anqola | - | İordaniya | 2010 | Çernoqoriya | 2005 | Amerikan Samoası | 1990 |
| Panama | - | Qabon | 1974 | Malayziya | 1979 | Makedoniya | 2008 | Palau | 1996 |
| Ekvador | 2010 | Namibiya | 2008 | Türkmənistan | 2010 | Serbiya | 2006 | Tuvalu | 2004 |
| Kolumbiya | 2008 | Əlcəzair | 2008 | **Azərbaycan** | **2009** | Rusiya* | 2004 | | |
| Peru | 2008 | Bostsvana | 1991 | İran | 1984 | Bosniya | 2007 | | |
| Dominikan R. | 2008 | Tunis | 2010 | Qazaxıstan | 2006 | Rumıniya | 1985 | | |
| Kosta Rika | 1986 | Cənubi Afrika | 1973 | Türkiyə* | 1997 | Belarusiya | 2007 | | |
| Meksika | 1974 | Surinam | 2005 | Tayland | 2010 | Litva* | 1991 | | |
| Seynt Lusia | 1986 | Maldiv | 2010 | Çin | 2010 | Latviya* | 1991 | | |
| Antiqua və Barbuda* | 1980 | Seyşel* | 1979 | Livan | 1997 | Bolqarıstan | 2006 | | |
| Seynt Vinsent və Qrenada | 1996 | Mavrişis | 1992 | | | | | | |
| Dominika | 1999 | Liviya | 1985 | | | | | | |
| Argentina | 1964 | | | | | | | | |
| Braziliya* | 1984 | | | | | | | | |
| Çili* | 1993 | | | | | | | | |
| Uruqvay* | 1986 | | | | | | | | |
| Yamayka | 2007 | | | | | | | | |
| Kuba | 2007 | | | | | | | | |
| Qrenada | 1997 | | | | | | | | |
| **Cəmi: 19** | | **12** | | **10** | | **10** | | **3** | **54** |

*Mənbə: Dünya Bankı məlumatları əsasında müəllif hesablamaları*

*Qeyd: Qırmızı rəngdə olan ölkələr yuxarı orta gəlir tələsinə düşmüş ölkələrdir*

**Bu ölkələr üzrə adambaşına Milli Gəlir 10 mindən yuxarıdır və Yüksək Gəlirli Ölkəyə çevrilmə astanasındadırlar*

# Ədəbiyyat


1. B. Eichengreen, D. Park, K. Shin (2011), ‘When fast growing economies slow down: International evidence and implications for China’, NBER Working Paper 16919.
2. S. Aiyar, R. Duval, D.Puy, Y. Wu, L.Zhang (2013), ‘Growth Slowdowns and the Middle-Income Trap’, BVF Working Paper 13/71.
3. J. Felipe (2012), ‘Tracking the Middle-Income Trap: What is It, Who is in It, and Why? Part 1’, ADB Working Paper 306.
4. Gill, I., and H. Kharas (2007), ‘An East Asian Renaissance’, The World Bank, Washington, DC. Gerschenkron, A. 1962. Economic Backwardness in Historical Perspective: A Book of Essays.
5. P. Agénor, O. Canuto, ‘Middle-Income Growth Traps’, World Bank policy research Working Paper 6210.
6. K. Cheng, L. Zhang (2013), ‘Is Emerging Asia Shifting to Lower Trend Growth?’, Regional Economic Outlook: Asia and Pacific, Box 1.9.
7. J. Bluedorn, R. Duttagupta, J. Guajardo, N. Mwase (2013), ‘The Growth Comeback in developing economies: A New Hope or Back to the Future?’, BVF Working Paper 13/132.
8. R. Anand, S. Mishra, S. Peiris (2013), ‘Inclusive Growth: Measurement and determinants’, BVF Working Paper 13/135.